## Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları:

2.1. öz fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın müddəalarını rəhbər tutsunlar;

2.2. Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası barədə hər altı aydan bir Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyaya məlumat təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Korrupsiyaya qarşı Mübarizə üzrə KomissiyaMilli Strategiyanın həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planının yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyətini təhlil etsin və bu barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsinlər.

4. Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının məhkəmələrinə, Baş Prokurorluğuna, Məhkəmə-Hüquq Şurasına, İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), yerli özünüidarə orqanlarına tövsiyə edilsin ki, Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi üçün zəruri tədbirlər görsünlər.

5. Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər barədə ictimaiyyətə mütəmadi olaraq məlumat versin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti öz səlahiyyətləri daxilində bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 iyul 2007-ci il
2292

Azərbaycan Respublikası Prezidentinin
2007-ci il 28 iyul tarixli 2292 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə

## MİLLİ STRATEGİYA

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə edilən nailiyyətlərin möhkəmləndirilməsi,

2004-2006-cı illər üçün Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramına uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi,

dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun olaraq qurulması, dövlət orqanlarına ictimai etimadın gücləndirilməsi, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin görülməsi,

korrupsiya hüquqpozmaları törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi, bu hüquqpozmalardan zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsi, korrupsiyaya qarşı mübarizədə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi,

vəzifəli şəxslərin və dövlət qulluqçularının vicdanlı xidmət və peşəkarlıq sahəsində nümunəvi davranışının gücləndirilməsi məqsədilə,

korrupsiyanın iqtisadi inkişaf üçün maneələr törətdiyini, qanunun aliliyini, bərabərlik və sosial ədalət prinsiplərini pozduğunu nəzərə alaraq,

dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının korrupsiyaya qarşı mübarizənin vacib şərti olduğunu qeyd edərək,

dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılmasına, dövlət əmlakının düzgün idarə olunmasına, antikorrupsiya mədəniyyətinin formalaşmasına şəffaflığın imkan yaratdığını vurğulayaraq,

korrupsiyaya qarşı mübarizə sahəsində milli qanunvericiliyin, Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının konvensiyalarının və digər beynəlxalq sənədlərin müddəalarını rəhbər tutaraq,

korrupsiyaya qarşı mübarizədə maarifləndirmə tədbirlərini və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı təşviq edərək,

korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın vacibliyini nəzərə alaraq və bu sahədə həyata keçirilən səyləri və təşəbbüsləri dəstəkləyərək,

Azərbaycan Respublikası korrupsiyaya qarşı mübarizədə siyasi iradəsini bir daha təsdiqləyərək Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanı qəbul edir.

### I. ŞƏFFAFLIĞIN ARTIRILMASI VƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ MİLLİ STRATEGİYANIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

' Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya (bundan sonra - "Milli Strategiya") Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər) davamı olaraq Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu və sosial-iqtisadi islahatlar çərçivəsində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçiriləcək çoxşaxəli, ardıcıl və mərhələli, uzun və qısamüddətli tədbirləri müəyyən edir.

Milli Strategiya korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin daha sıx əməkdaşlığa cəlb edilməsi, antikorrupsiya mədəniyyətinin artırılması, dövlət orqanlarının, o cümlədən hüquq mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasir tələblərə uyğun olaraq qurulması, iqtisadi və sosial sahədə inkişafa mane olan amillərin aradan qaldırılması üçün tədbirlər müəyyən edir.

Milli Strategiya korrupsiyaya qarşı mübarizənin əsas şərti kimi dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasını təsbit edir. Şəffaflığın təmin edilməsi öz-özlüyündə korrupsiyanın aradan qaldırılması məqsədi daşımır. O, korrupsiyaya qarşı mübarizənin əsas vasitəsi kimi müəyyən edilir.

Şəffaflıq təmin edildiyi təqdirdə ictimaiyyət dövlət orqanlarının qəbul edəcəyi qərarlar haqqında daha çox məlumata malik olur, ictimai diskussiyaya şərait yaranır, dövlət orqanlarına ictimai etimad güclənir və bu orqanların hesabatlılığı və məsuliyyəti daha da artır. Şəffaflıq dövlət orqanlarının fəaliyyətinin təkmilləşməsinə, dövlət orqanlarının fəaliyyətinin daha səmərəli surətdə təhlil edilməsinə və qiymətləndirilməsinə xidmət edir. Şəffaflıq həmçinin iqtisadiyyatın inkişafı, əlverişli biznes mühitinin yaradılması, xarici sərmayələrin cəlb edilməsi üçün əsas şərtlərdəndir.

Milli Strategiya qərar qəbul etmə mexanizmləri və qaydaları, dövlət qulluğuna qəbul, dövlət büdcəsinin gəlir və xərcləri, siyasi partiyaların maliyyələşdirilməsi, dövlət satınalmaları, özəlləşdirmə, investisiya, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyəti və digər sahələrdə şəffaflığın artırılması üçün tədbirləri müəyyən edir.

Şəxslərin məlumat azadlığından istifadəsi dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi şərtlərindən biridir. Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı (bundan sonra - "Fəaliyyət Planı") bu azadlığı təmin edən informasiya əldə etmək haqqında qanunvericiliyin tətbiqində səmərəliliyin artırılmasını, vətəndaşların dövlət və yerli özünüidarə orqanlarının fəaliyyəti barədə məlumat əldə edə bilməsini, informasiya məsələləri üzrə müvəkkil institutunun fəaliyyəti üzrə təkliflərin hazırlanmasını nəzərdə tutmuşdur.

### II. ŞƏFFAFLIĞIN ARTIRILMASI VƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏNİN ƏSAS PRİNSİPLƏRİ

**1. Qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət**

Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər və bununla bağlı dövlət orqanlarının vəzifə və səlahiyyətləri qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət prinsipinə əsaslanaraq həyata keçirilir.

**2. İnformasiya azadlığının təmin edilməsi**

Əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyalar istisna olmaqla, dövlət orqanları öz fəaliyyətləri barədə məlumatları ictimaiyyətə çatdırmalıdırlar. Dövlət orqanları şəxslərin, kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyəti institutlarının onların fəaliyyətləri barədə informasiya ala bilmələri üçün zəruri tədbirlər görürlər.

**3. Hesabatlılığın təmin edilməsi**

Hesabatlılıq dövlət orqanları və vəzifəli şəxslərin məsuliyyətinin artırılması məqsədini daşıyır. Dövlət orqanları öz fəaliyyətləri barədə dövri hesabatları və məlumatlan ictimaiyyətə təqdim etməlidirlər.

**4. Dövlət orqanlarının fəaliyyətinə nəzarət**

Bütün dövlət orqanları korrupsiyaya qarşı mübarizə məqsədilə öz tabeliklərində olan qurumlar üzərində səmərəli nəzarəti həyata keçirməlidirlər.

**5. Korrupsiyanın qarşısının alınması və korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyət**

Korrupsiyaya qarşı mübarizə yalnız korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyətə cəlb etməklə deyil, həmçinin korrupsiyaya şərait yaradan halların müəyyən edilməsi, təhlili, aradan qaldırılması və qabaqlayıcı tədbirlər vasitəsilə həyata keçirilməlidir.

**6. Düzgün idarəçilik**

Dövlət orqanları fəaliyyətlərini həyata keçirmək üçün məqsədyönlü və səmərəli tədbirlər görməli və qarşılarında duran vəzifələrin yerinə yetirilməsi üçün lazımi bacarıqlara və çevikliyə malik olmalıdırlar.

**7. Korrupsiyaya qarşı maarifləndirmə və əməkdaşlıq**

Korrupsiyaya qarşı mübarizənin səmərəli surətdə həyata keçirilməsi üçün ictimaiyyətin maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilməli, digər ölkələrin təcrübəsindən istifadə olunmalı, beynəlxalq təşəbbüslərdə iştirak edilməli, eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət təşkilatları, özəl sektor, kütləvi informasiya vasitələri, beynəlxalq təşkilatlar və digər tərəfdaşlarla əməkdaşlıq edilməlidir.

## III. MİLLİ STRATEGİYA ÜZRƏ TƏDBİRLƏR

Milli Strategiya şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə aşağıdakı sahələrdə tədbirləri nəzərdə tutur:

**1. Qanunvericiliyin təkmilləşdirilməsi**

BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının, Avropa Şurasının korrupsiya ilə əlaqədar cinayət və mülki-hüquqi məsuliyyət haqqında konvensiyalarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq sənədlərin Azərbaycan Respublikasının qanunvericiliyinə tam implementasiyası üçün tədbirlər davam etdiriləcəkdir.

Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə bir sıra normativ hüquqi aktların, o cümlədən hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının qarşısının alınması, maraqlar toqquşmasının qarşısının alınması, siyasi partiyaların maliyyələşməsində şəffaflığın artırılması ilə bağlı layihələrin və Fəaliyyət Planında göstərilən digər qanunvericilik aktlarının layihələrinin hazırlanması nəzərdə tutulur.[1]

Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə normativ hüquqi aktların və onların layihələrinin korrupsiyaya qarşı mübarizə nöqteyi-nəzərindən müvafiq ekspertizası həyata keçiriləcəkdir.

Qanunvericilik sahəsində şəffaflığı təmin etmək məqsədilə korrupsiyaya qarşı mübarizə sahəsində əhəmiyyətli qanun layihələri üzrə ictimai müzakirələr təşkil ediləcəkdir. İctimai müzakirələr maraqlı tərəflərə qanunun hazırlanması prosesində iştirak etməyə imkan yaradacaq, normativ hüquqi aktların keyfiyyətinin təkmilləşdirilməsinə xidmət edəcək və qanunların tətbiqinin səmərəliliyini artıracaqdır. Vətəndaş cəmiyyəti institutlarının dövlətin və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən normativ hüquqi aktların layihələrinin hazırlanması sahəsində fəaliyyəti dəstəklənəcəkdir.

Qanunvericilik sahəsində şəffaflığı təmin etmək məqsədilə normativ hüquqi aktların vahid internet elektron bazasının təkmilləşdirilməsi, onun mütəmadi surətdə yeniləşdirilməsi üçün tədbirlər görüləcəkdir.

**2. Dövlət və yerli özünüidarə orqanlarının fəaliyyəti**

Dövlət orqanlarının fəaliyyəti sahəsində tədbirlər həmin orqanların işinin təkmilləşdirilməsinə, onların fəaliyyətində peşəkarlığın, hesabatlılığın və şəffaflığın artırılmasına yönəlmişdir.

Dövlət orqanları qərarların qəbul edilməsi prosedurlarının dəqiq müəyyən edilməsi, ərizə və şikayətlərə baxılması işinin və qaydalarının təkmilləşdirilməsi məqsədilə tədbirlər görəcəklər.

Dövlət və yerli özünüidarə orqanları fəaliyyətləri barədə məlumatların ictimaiyyətə çatdırılması üçün illik hesabatlar tərtib edəcəklər. Hesabatlarda qulluğa qəbul və qulluqla bağlı digər məsələlər, büdcə, ərizə və şikayətlərə baxılması, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlərlə bağlı məlumatlar əks olunacaqdır. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya hesabatların tərtib edilməsi üçün nümunəvi qaydalar hazırlayacaqdır.

Şəffaflığın və səmərəliliyin artırılması üçün dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətini əks etdirən internet səhifələrinin tərtib edilməsi işinin başa çatdırılması, ərizə və müraciətlərin elektron vasitələrlə qəbul edilməsinin təşkili nəzərdə tutulur.

Dövlət orqanlarının səlahiyyətlərinin daha dəqiq müəyyən edilməsi, həmin orqanların səlahiyyətlərində təkrarlanmaların aradan qaldırılması məqsədilə qanunvericilik və digər təşkilati tədbirlərin görülməsi davam etdiriləcəkdir.

Mərkəzi və yerli icra hakimiyyəti, habelə yerli özünüidarə orqanlarında korrupsiyaya qarşı mübarizə üzrə kompleks tədbirlər planlarının hazırlanması və onların tətbiq edilməsi, dövlət və özəl sektorda korrupsiya məsələləri ilə bağlı ixtisaslaşdırılmış tədqiqatların həyata keçirilməsi planlaşdırılır.

Milli Strategiya dövlət qulluğunun təkmilləşdirilməsini, qulluğa qəbul, vəzifədə irəliləmə, vəzifədən azad etmə,dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi,dövlət qulluğunda rotasiya sisteminin tətbiqi ilə bağlı daha şəffaf prosedurların təmin edilməsini tələb edir. Fəaliyyət Planına görə dövlət qulluğuna qəbul qaydaları və institusional mexanizmlər təkmilləşdirilməli, dövlət qulluğunun bütün sahələrində,həmçinin bələdiyyələrin aparatlarında qulluğa qəbulun şəffaflıq və müsabiqə əsasında həyata keçirilməsi təmin edilməlidir. Bununla yanaşı, dövlət orqanlarında qulluğun nüfuzunun artırılması, dövlət qulluqçularının həvəsləndirmə proqramlarının həyata keçirilməsi, dövlət qulluğuna ixtisaslı və peşəkar kadrların cəlb edilməsi üçün tədbirlər həyata keçirilməsi planlaşdırılır.

Dövlət qulluqçuları və vəzifəli şəxslərin etik davranışının təkmilləşdirilməsi üçün sahələr üzrə etik davranış qaydalarının qəbul edilməsi, dövlət qulluqçularının mütəmadi olaraq etik davranış məsələləri üzrə tədris və treninqlərə cəlb edilməsi, etik davranış qaydaları barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə tədbirlər görüləcəkdir.

Dövlət qulluqçularının peşə bacarıqlarının artırılması üçün korrupsiyaya qarşı mübarizə məsələləri ilə əlaqədar xüsusi tədris və treninq proqramlarının təşkil edilməsi nəzərdə tutulur.

Dövlət qulluqçularının maddi-texniki, sosial və maliyyə təminatının yaxşılaşdırılması üçün dövlət məvaciblərinin mərhələlərlə artırılması və digər tədbirlər həyata keçiriləcəkdir.

Korrupsiyaya qarşı mübarizə məqsədilə dövlət orqanlarında daxili nəzarət qurumlarının təkmilləşdirilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi nəzərdə tutulur. Şəxslərin bu orqanlara birbaşa müraciət etməsi üçün imkanlar yaradılmalı və onların qərar qəbuletmə prosesi daha operativ olmalıdır. İctimaiyyətlə əlaqələrin gücləndirilməsi üçün qaynar xətlərin və qaynar xətlərə daxil olan məlumatlarla əlaqədar operativ tədbirlər görülməsi sisteminin yaradılması, bu xətlər barədə ictimaiyyətin məlumatlandırılması üçün tədbirlər müəyyən edilir. Korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsini tənzimləyən qanunvericilik bazasının gücləndirilməsi nəzərdə tutulur.

Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların verilməsi qaydalarının tətbiqi üçün müvafiq işlər görüləcəkdir.

BMT və Avropa Şurasının tövsiyələrinə və beynəlxalq təcrübəyə uyğun olaraq siyasi partiyaların maliyyə vəsaitlərinin xərclənməsində şəffaflığın artırılması və bu məqsədlə nəzarət mexanizminin müəyyən edilməsi, siyasi partiyaların maliyyələşməsinə nəzarətin təkmilləşdirilməsi üçün təkliflər hazırlanacaqdır.

### 3. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların, hüquq mühafizə orqanlarının və məhkəmələrin fəaliyyəti

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın, onun Katibliyinin və işçi qruplarının fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni resursların cəlb edilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi və digər hüquq mühafizə orqanları arasında əməkdaşlığın daha səmərəli mexanizmlərinin müəyyən edilməsi, onların iş təcrübəsinin ümumiləşdirilməsi, korrupsiya cinayətləri barədə vahid informasiya bazasının yaradılması, cinayət təqibini həyata keçirən orqanlar arasında daha çevik informasiya mübadiləsi təmin ediləcəkdir.

Korrupsiyaya qarşı Mübarizə İdarəsi və digər hüquq mühafizə orqanlarının müvafiq əməkdaşlarının korrupsiya cinayətlərinin aşkar edilməsi, istintaqı və ittihamı üzrə ixtisaslarının artırılması üçün tədbirlər görüləcəkdir. Korrupsiya cinayətlərinin aşkar edilməsi məqsədilə əməliyyat-axtarış tədbirlərinin tətbiqi təkmilləşəcəkdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanların səmərəli surətdə fəaliyyət göstərməsi üçün bu orqanların müstəqilliyinin təmini və heç bir təsirə məruz qalmaması üçün əlavə tədbirlər görüləcəkdir.

Korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşmış orqanlar öz fəaliyyətlərini ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının və özəl sektorun nümayəndələri ilə əlaqəli şəkildə quracaqlar. Korrupsiyaya qarşı mübarizə aparan orqanlara ictimai etimadın güclənməsi üçün onların işi mümkün qədər şəffaf qurulmalıdır.

Hüquq mühafizə orqanları əməkdaşlarının yüksək dövlət məvacibi ilə təmin edilməsi korrupsiyaya qarşı mübarizədə mühüm amillərdən biridir. Bu məqsədlə hüquq mühafizə orqanlarında qulluq keçən şəxslərin dövlət məvaciblərinin mərhələlərlə artırılmasının davam etdirilməsi, onların sosial təminatının yaxşılaşdırılması üçün müvafiq tədbirlər nəzərdə tutulur.

Məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün hakimlər üçün korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış təlim və tədrisin təşkil edilməsi, beynəlxalq təcrübənin öyrənilməsi təşviq ediləcəkdir. Məhkəmə qərarlarının dərc edilməsi üçün əlavə tədbirlər görüləcəkdir.

Məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsi ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur. Məhkəmə qərarlarının icra edilməməsi şəxslərin məhkəmə müdafiəsi hüququnun pozulması kimi qiymətləndirilməlidir.

Korrupsiyaya qarşı mübarizədə şahidlərin və cinayət təqibini həyata keçirən orqanlarla əməkdaşlıq edən şəxslərin müdafiəsi işinin təkmilləşdirilməsi üçün təkliflər hazırlanacaqdır.

### 4.İqtisadi və sosial sahədə

İqtisadi və sosial sahədə maliyyə nəzarəti, investisiyaların təşviqi, özəlləşdirmə, dövlət satınalmaları, audit prosesində şəffaflığın artırılması, eyni zamanda rəqabət və biznes mühitinin gücləndirilməsi üçün qanunvericilik aktlarının qəbul edilməsi və inzibati tədbirlərin görülməsi nəzərdə tutulur. Lisenziyaların və icazələrin verilməsi, vergi, gömrük, təhsil və səhiyyə sahələrində islahatlar bu tədbirlərin tərkib hissəsidir.

Ədalətli rəqabətin təmin edilməsi üçün müvafiq normativ hüquqi aktların qəbulu və onların səmərəli tətbiqi və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur,

Özəlləşdirmə sahəsində şəffaflığın artırılması və özəlləşdirmədə nəzarətin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçiriləcəkdir.

Lisenziyaların və icazələrin verilməsində şəffaflığın artırılması, onların verilmə şərtlərinin sadələşdirilməsi, lisenziyaların və icazələrin verilməsinin elektron sisteminə keçirilməsi üçün təkliflər hazırlanacaqdır.

Dövlət satınalmaları sahəsində ədalətli rəqabətin təmin edilməsi üçün müvafiq normativ hüquqi aktların hazırlanması, bu sahədə maliyyə orqanlarının nəzarətinin artırılması, dövlət satınalmaları sahəsində qanun pozuntularına yol vermiş şəxslərin satınalmalarda iştirakının məhdudlaşdırılması, şikayətlərə təxirəsalınmadan baxılması üçün tədbirlər müəyyən edilir. Dövlət satınalmalarında şəffaflığın və peşə bacarıqlarının artırılması məqsədilə ictimaiyyətin məlumatlandırılması, internet imkanlarından istifadənin genişləndirilməsi, elektron dövlət satınalmalarının həyata keçirilməsi üçün tədbirlər görüləcək, bu sahədə çalışan mütəxəssislər üçün təlim və treninqlər təşkil olunacaqdır.

Korrupsiya ilə əlaqədar hüquqpozmalardan əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə milli qanunvericiliyin BMT və Avropa Şurasının bu sahədə konvensiyalarına və Maliyyə Tədbirləri üzrə İşçi Qrupun (FATF) tövsiyələrinə uyğun olaraq təkmilləşdirilməsi, institusional mexanizmlərin möhkəmləndirilməsi nəzərdə tutulur.

Təsərrüfat subyektləri arasında maliyyə əməliyyatlarının və hesablaşmaların şəffaflığının təmin edilməsi məqsədilə mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalarda nağdsız ödəmələrin həcminin artırılması üçün tədbirlər müəyyən edilir.

Audit xidmətinin təkmilləşdirilməsi məqsədilə beynəlxalq audit standartlarının tam tətbiqinə keçilməsi, daxili audit xidmətinin və auditorların fəaliyyətinə dair nəzarət sistemlərinin təkmilləşdirilməsi üzrə tədbirlər nəzərdə tutulur.

Audit təşkilatlarının korrupsiyaya qarşı mübarizə aparan orqanlarla əməkdaşlığının gücləndirilməsi və onların korrupsiyaya qarşı mübarizə sahəsində məsuliyyətlərinin artırılması sahəsində tədbirlər həyata keçiriləcəkdir.

Vergi və gömrük işinin təkmilləşdirilməsi məqsədilə vergi və gömrük rüsumları qaydalarının sadələşdirilməsi, gömrük və vergi orqanlarının qərarlarından verilən şikayətlərə baxılması işinin təkmilləşdirilməsi, vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsinin asanlaşdırılması üçün tədbirlər müəyyən edilir.

Gömrük prosedurlarının səmərəliliyinin və şəffaflığının artırılması məqsədilə gömrük məntəqələrində normativ hüquqi aktlar, gömrük rüsum və tarifləri barədə məlumat xidmətlərinin yaradılması, gömrük sərhədində mal dövriyyəsinin sürətləndirilməsi və sahibkarlıq subyektlərinə əlverişli şəraitin yaradılması, gömrük ödənişlərində nağdsız ödəniş sisteminə keçilməsi üçün tədbirlər planlaşdırılır.

Maliyyə nəzarəti sahəsində qanunvericiliyin və maliyyə nəzarətini həyata keçirən orqanların işinin, maliyyə nəzarəti prosedurlarını tənzimləyən normaların təkmilləşdirilməsi üçün tədbirlər həyata keçiriləcəkdir. Maliyyə nəzarəti orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə dövri məruzələrin tərtib edilməsi davam etdiriləcəkdir. Yerli büdcənin icrasına nəzarət mexanizmlərinin və prosedurlarının təkmilləşdirilməsi nəzərdə tutulur.

Büdcə sisteminin qanunvericilik bazasının və büdcə təsnifatının təkmilləşdirilməsi, həmçinin yerli özünüidarə orqanlarının vəsaitlərinin formalaşması və təyinatı üzrə xərclənməsi prosesində şəffaflığın təmin edilməsi üçün tədbirlər həyata keçiriləcəkdir.

Təhsil və səhiyyə sahələrində tədbirlər sırasına müəllimlərin və həkimlərin statusuna dair təkliflərin hazırlanması, müəllimlərin və həkimlərin işə qəbulunun şəffaflıq və müsabiqə əsasında həyata keçirilməsinin təmin edilməsi, müəllimlərin və həkimlərin etik davranış qaydalarının qəbul edilməsi, müəllimlərin və həkimlərin maaşlarının artırılması və sosial təminatının gücləndirilməsi tədbirləri daxildir.

### 5. Maarifləndirmə

Korrupsiyanın mahiyyəti, səbəbləri və onun doğurduğu təhlükələr haqqında maarifləndirmə işi davam etdiriləcəkdir. Vətəndaş cəmiyyəti institutlarının, özəl sektorun və kütləvi informasiya vasitələrinin maarifləndirmə işinə cəlb olunması dəstəklənəcəkdir.

### 6. Korrupsiyaya qarşı mübarizədə əməkdaşlıq

Vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri və özəl sektor Fəaliyyət Planının icrası üzrə tərəfdaş kimi müəyyən edilirlər.

Korrupsiyaya qarşı mübarizə aparan orqanlar Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq beynəlxalq qurumlar və xarici dövlətlərin müvafiq orqanları ilə əməkdaşlığı daha da genişləndirəcəklər.

### IV. MİLLİ STRATEGİYANIN İCRASI VƏ İCRAYA NƏZARƏT

Azərbaycan Respublikasının Nazirlər Kabineti və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya Milli Strategiyanın icrasına nəzarəti həyata keçirir və Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə hər altı aydan bir məlumat təqdim edirlər.

Mərkəzi icra hakimiyyəti orqanları Fəaliyyət Planının icrası ilə əlaqədar müvafiq tədbirlər planı qəbul edir və onun icrasına nəzarət məqsədilə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edirlər. Bu orqanlar Milli Strategiyanın icra vəziyyəti barədə məlumatları hər altı aydan bir Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edirlər. Milli Strategiyanın icrasına məsul digər qurumlar həmçinin icra vəziyyəti barədə məlumatları eyni qaydada Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edirlər.

Şəffaflığın artırılması, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq və maarifləndirmə tədbirləri vasitəsilə Milli Strategiyanın icrasına həmçinin ictimai nəzarət həyata keçirilir. İctimai nəzarətin səmərəli həyata keçirilməsi üçün informasiya əldə edilməsi, söz azadlığı və insan hüquqlarının qorunmasını gücləndirəcək siyasi, hüquqi və mədəni mühit təşviq olunacaqdır. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan jurnalistlərin peşəkarlığının, etik davranışının və məsuliyyətinin artırılması məqsədilə təlim və treninqlər keçiriləcəkdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Milli Məclisi qarşısında illik hesabatında həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verilməsini davam etdirəcəkdir.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən korrupsiya ilə mübarizə üzrə illik milli hesabat hazırlanması nəzərdə tutulur. Hesabat aidiyyəti dövlət orqanlarının iştirakı ilə hazırlanacaq və onun hazırlanmasında vətəndaş cəmiyyəti institutları tərəfindən təqdim edilən məlumatlardan istifadə ediləcəkdir.

İllik milli hesabat BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının, Avropa Şurasının korrupsiya ilə əlaqədar cinayət və mülki-hüquqi məsuliyyət haqqında konvensiyalarının və Milli Strategiyanın icra vəziyyətini dəyərləndirəcəkdir. Bu dəyərləndirmə aparılan islahatların təhlil edilməsinə, prioritetlərin, növbəti mərhələlər üzrə tədbirlərin müəyyən edilməsinə xidmət edəcəkdir.

Milli Strategiyanın icrasını qiymətləndirmək məqsədilə Dünya Bankının və digər beynəlxalq təşkilatların yeni idarəçilik göstəricilərindən istifadə olunacaqdır.

Milli Strategiya dövlət və özəl sektorlarda korrupsiyanın səviyyəsinin öyrənilməsi məqsədilə həmçinin ixtisaslaşdırılmış tədqiqatların və rəy sorğularının həyata keçirilməsini nəzərdə tutur. Tədqiqatlar və rəy sorğuları qabaqcıl beynəlxalq metodologiyaya əsaslanaraq keçiriləcəkdir.

### V. MİLLİ STRATEGİYANIN İCRASI ÜZRƏ PRİORİTETLƏR

Fəaliyyət Planı şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə tədbirlərin prioritetlərini müəyyən edir. Fəaliyyət Planına əsasən həmin tədbirlərin icrası üçün daha qısa müddətlər müəyyən edilmişdir.

### VI. MİLLİ STRATEGİYANIN MALİYYƏLƏŞDİRİLMƏSİ

Milli Strategiyada göstərilən tədbirlər dövlət büdcəsindən və qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən maliyyələşir. Hər il dövlət büdcəsinin layihəsi hazırlanarkən dövlət orqanları Fəaliyyət Planının icrası üçün zəruri maliyyə ayrılması məqsədilə öz təkliflərini aidiyyəti qurumlara təqdim edirlər.

Dövlət orqanları Fəaliyyət Planında nəzərdə tutulan müvafiq tədbirlərin dəstəklənməsi üçün beynəlxalq tərəfdaşların konsultativ, metodiki, texniki və digər yardımlarından istifadə edə biləcəklər.

## Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı FƏALİYYƏT PLANI (2007-2011-ci illər) [2]

| | I. Qanunvericiliyin təkmilləşdirilməsi sahəsində | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Tədbirin adı** | **Görüləcək işlər və gözlənilən nəticələr** | **İcrasına məsul orqan** | **Tərəfdaş qurumlar** | **İcra müddəti** | **Maliyyə mənbəyi** |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1. | Birləşmiş Millətlər Təşkilatının və Avropa Şurasının korrupsiyaya qarşı mübarizə sahəsində konvensiyalarının və bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrin milli qanunvericiliyə implementasiyası üçün tədbirlərin davam etdirilməsi | - konvensiyalara uyğunluq üzrə ümumi dəyərləndirmənin həyata keçirilməsi və bununla bağlı yekun hesabat sənədinin hazırlanması<br>- qanunvericiliyin beynəlxalq sənədlərə uyğunlaşdırılması üçün müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət or qanları | QHT-lər , müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2008<br>2007 -2008 | |
| 2. | Korrupsiyaya qarşı mübarizə üzrə zəruri qanunvericilik aktlar ı n ı n layihələrinin və ya təkliflərin hazırlanması | - hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında qanun layihəsinin hazırlanması<br>- dövlət qulluqçularının və digər vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması haqqında qanun layihəsinin hazırlanması<br>- qeyri-qanuni yolla əldə olunmuş pulların və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarsı mübarizə haqqında qanunun layihəsinə dair təkliflərin hazırlanması<br>- korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsinə dair qanunvericilik təkliflərinin hazırlanması<br>- vəzifəli şəxslərin maliyyə xarakterli məlumatları haqqında bəyannamə formasının təsdiqi ilə bağlı müvafiq işlərin görülməsi | Nazirlər Kabineti, Prezidentin İcra Aparatı | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar, Cinayət Məcəlləsinin təkmilləşdirilməsi üzrə işçi qrup | Yanvar-mart 2008<br>Noyabr-dekabr 2007<br>2007<br>2008<br>2007-2008 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 2. | | - siyasi partiyaların maliyyələşdirilməsi və vəsaitlərinin xərclənməsində şəffaflığın artırılması üçün nəzarət mexanizmlərinin müəyyən edilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması<br>- Rəqabət Məcəlləsinin qəbul edilməsi<br>- İnzibati Prosessual Məcəllənin qəbul edilməsi | tövsiyə edilir: Milli Məclis | | 2008<br>2007-2008 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3. | Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar normativ hüquqi aktların ekspertizasının həyata keçirilməsi | - qüvvədə olan normativ hüquqi aktların və normativ hüquqi aktların layihələrinin dəyərləndirilməsi<br>- qanunvericiliklə nəzərdə tutulmayan hüquq münasibətlərinin tənzimlənməsi üçün normativ hüquqi aktlara əlavə və dəyişikliklərin hazırlanması<br>- qəbul ediləcək dövlət proqramlarının layihələrində korrupsiyanın qarşısının alınmasına yönəlmiş tədbirlərin nəzərdə tutulması | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Ədliyyə Nazirliyi, digər aidiyyəti dövlət orqanları | QHT-lər, müstəqil ekspertlər,beynəlxaq tərəfdaşlar | Mütəmadi | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 4. | Normativ hüquqi aktların vahid elektron bazasının yaradılması | - elektron bazanın mütəmadi yeniləşdirilməsi<br>- elektron bazanın daim işlək vəziyyətdə saxlanılması<br>- elektron bazanın ictimaiyyət üçün açıq olması | Ədliyyə Nazirliyi | müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Yanvar 2008-ci ildən başlayaraq | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 5. | Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar normativ hüquqi aktların layihələrinin hazırlanması prosesində ictimaiyyətin iştirakının təmin edilməsi | - vətəndaş cəmiyyəti institutlarının, özəl sektor nümayəndələrinin, kütləvi informasiya vasitələrinin və müstəqil ekspertlərin iştirakı ilə ictimai dinləmələrin keçirilməsi<br>- vətəndaş cəmiyyəti institutlarının, özəl sektor nümayəndələrinin, kütləvi informasiya vasitələrinin və müstəqil ekspertlərin qanunvericilik təşəbbüsünün subyektlərinə qanun layihələrinin təklif etmələrinin təşviq edilməsi - qanunvericilik sahəsində verilmiş təklif və rəylərin qiymətləndirilməsi v ə nəzərə alınması | Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya, qanunvericilik təşəbbüsünün subyektləri | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar, KİV | Mütəmadi | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 6. | Lobbiçilik fəaliyyəti haqqında qanunun qəbulunun məqsədə müvafiqliyinin öyrənilməsi | - beynəlxalq təcrübənin öyrənilməsi<br>- milli qanunvericilik kontekstində lobbiçilik fəaliyyətinin mümkünlüyünün araşdırılması<br>- məsələ ilə bağlı yekun sənədin hazırlanması | Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | İyun 2008 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |

## II. Dövlət və yerli özünüidarə orqanlarının fəaliyyəti sahəsində

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7. | Dövlət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi və onların fəaliyyətində təkrarlanmanın aradan qaldırılması ilə bağlı işlərin davam etdirilməsi | - dövlət orqanlarının əsasnamələrinin və onların fəaliyyətini tənzimləyən digər normativ hüquqi aktların ekspertizası<br>- dövlət orqanlarının səlahiyyətlərinin təkrarlanmasının aradan qaldırılması, habelə dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə qanunvericilik və digər təkliflərin verilməsi<br>- dövlət orqanlarının strukturlarına daxil olan qurumların əsasnamələrində vəzifəli şəxslərin səlahiyyətlərinin aydın müəyyən edilməsi<br>- tənzimləmə və kommersiya funksiyalarının eyni orqan tərəfindən həyata keçirilməsinin qarşısının alınması | Nazirlər Kabineti, Prezidentin İcra Aparatı, Ədliyyə Nazirliyi, aidiyyəti dövlət orqanları | | 2007-2011 | |
| 8. | Komissiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə, ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi | - müraciət, ərizə və şikayətlərə baxılması qaydalarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması<br>- ərizə və şikayətlərlə əlaqədar effektiv araşdırmaların aparılması<br>- elektron poçt vasitəsilə ərizə və şikayətlərin qəbulu işinin təşkili | Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları<br>tövsiyə edilir: məhkəmələr, Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, bələdiyyələr | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | İyun 2008<br><br>Mütəmadi<br>2008-2009 | |

| 1. | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 9. | İnzibati qərarlardan şikayət verilməsi sisteminin təkmilləşdirilməsi | - İnzibati Prosessual Məcəllənin tətbiqi ilə əlaqədar institusional mexanizmlərin yaradılması üçün tədbirlərin görülməsi<br>- İnzibati Prosessual Məcəllə qəbul edildikdən sonra onun tətbiq edilməsi üzrə dövlət qulluqçularına və hakimlərə müvafiq treninqlərin keçilməsi | Nazirlər Kabineti, Prezidentin İcra Aparatı<br>tövsiyə edilir: Ali Məhkəmə, Məhkəmə Hüquq Şurası | Beynəlxalq tərəfdaşlar | İnzibati Prosessual Məcəllə qəbul edildikdən sonra | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 10. | Məlumat azadlığından istifadənin təkmilləşdirilməsi | - məlumat əldə edilməsi qaydalarının və üsullarının təkmilləşdirilməsi<br>- məlumat əldə edilməsi üzrə məsul olacaq struktur bölmələrin fəaliyyətinin təkmilləşdirilməsi<br>- bu sahədə treninqlərin keçirilməsi<br>- informasiya məsələləri üzrə müvəkkil institutunun fəaliyyəti ilə bağlı təkliflərin hazırlanması | Mərkəzi və yerli icra hakimiyyəti orqanları tövsiyə edilir: məhkəmələr, Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman), bələdiyyələr | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2007-2009 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| 11. | Korrupsiyanın səviyyəsinin öyrənilməsi məqsədilə ixtisaslaşdırılmış tədqiqatların və rəy sorğularının həyata keçirilməsi | - korrupsiyanın ümumilikdə və sahələr üzrə səbəbləri, xüsusiyyətləri, səviyyəsi barədə məlumatların əldə edilməsi<br>- korrupsiyaya qarşı mübarizə üzrə həyata keçirilmiş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi<br>- əldə olunan nəticələrə əsaslanaraq korrupsiyaya qarşı tədbirlərin müəyyən edilməsi | Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Mütəmadi | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| 12. | Dövlət qurumlarının fəaliyyəti barədə illik hesabatların tərtib edilməsi | - hesabatlarda qulluğa qəbul və qulluqla bağlı digər məsələlər, büdcə, ərizə və şikayətlərə baxılması, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin göstərilməsi<br>- hesabatların dərc edilməsi və ictimaiyyətə açıqlanması | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, mərkəzi və yerli icra hakimiyyəti orqanları | | Hər il yanvarın 30-dək | |

| 1. | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən hesabatların tərtib edilməsi üçün nümunəvi qaydaların hazırlanması | tövsiyə edilir: Ali Məhkəmə, Məhkəmə Hüquq Şurası, Baş Prokurorluq, bələdiyyələr | | | |
| 13. | Dövlət orqanlarında daxili nəzarət qurumlarının işinin təkmilləşdirilməsi | - şəxslərin birbaşa daxili nəzarət orqanlarına müraciət imkanlarının yaradılması<br>- daxili nəzarət orqanları tərəfindən müraciətlərə operativ və qısa müddət ərzində baxılması<br>- daxili nəzarət qurumları tərəfindən aşkar edilən korrupsiya cinayətləri barədə hüquq mühafizə orqanlarının məlumatlandırılması<br>- daxili nəzarət qurumlarının maddi və texniki resurslar, ixtisaslı kadrlarla təmin edilməsi sahəsində tədbirlərin görülməsi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları tövsiyə edilir: Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası | | Mütəmadi | Dövlət büdcəsi |
| 14. | Dövlət qurumlarının fəaliyyətini geniş əks etdirən internet səhifələrinin yaradılması | - internet səhifələrində məlumatların mütəmadi yeniləşdirilməsi<br>- "İnformasiya əldə etmək haqqında" Qanunda nəzərdə tutulan məlumatların internet səhifələrində yerləşdirilməsi<br>- internet səhifələrindən əhaliyə xidmət vasitəsi kimi istifadə edilməsi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları tövsiyə edilir: məhkəmələr, Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, bələdiyyələr | | İyun 2008 | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 15. | Dövlət qurumlarının fəaliyyəti ilə əlaqədar tətbiq edilən rüsum, tarif və digər ödənişlərin yığılmasının təkmilləşdirilməsi və şəffaflığın artırılması | - dövlət orqanlarının binalarında rüsum, tarif, vergilər və göstərilən xidmətlərə görə ödənişlər barədə məlumatları əks etdirən lövhələrin yerləşdirilməsi<br>- rüsumların, vergilərin və digər ödənişlərin yığılması üzrə nağd ödəmələrin azaldılması | Nazirlər Kabineti mərkəzi və yerli icra hakimiyyəti orqanları<br>tövsiyə edilir: məhkəmələr, bələdiyyələr | | Yanvar 2008-ci ildən başlayaraq mütəmadi | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - maaşların, pensiyaların, sosial müavinətlərin v ə digər sosial ödənişlərin plastik kartlar vasitəsilə ödənilməsinin təmin edilməsi<br>- şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi və onların tətbiqi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi | | | | |
| 16. | İctimaiyyətlə əlaqələrin gücləndirilməsi | - dövlət orqanlarında qaynar xətlərin yaradılması və qaynar xətt barədə ictimaiyyətin məlumatlandırılması<br>- qaynar xətlərə daxil olan məlumatlarla əlaqədar operativ tədbirlər görülməsi sisteminin yaradılması<br>- ictimai mənafeyə toxunan qərarlar barədə izahat işinin aparılması<br>- dövlət orqanlarına ictimai etimadın artırılması məqsədilə onların fəaliyyəti üzrə təbliğat işinin təşkil edilməsi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Yanvar 2008-ci ildən başlayaraq mütəmadi | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 17. | Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi | - bələdiyyələrin aparatlarında qulluğa qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinin təmin edilməsi<br>- bələdiyyələrdə çalışan şəxslər üçün korrupsiyaya qarşı mübarizə məsələləri üzrə tədris kurslarının, treninqlərin və seminarların təşkili<br>- bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi | bələdiyyələr - tövsiyə edilir Ədliyyə Nazirliyi | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Mütəmadi | |
| 18. | Dövlət qulluqçularının və digər vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması | - maraqlar toqquşmasının qarşısının alınması haqqında qanunvericiliyin tətbiqi üzrə treninqlərin təşkili | Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Müvafiq qanun qəbul edildikdən sonra | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - maraqlar toqquşmasının qarşısının alınması üçün səmərəli nəzarət mexanizminin yaradılması<br>- maraqlar toqquşmasının qarşısının alınması üçün nəzarət qurumlarının zəruri maddi və texniki resurslarla təmin edilməsi | | | | |
| 19. | Dövlət qulluqçuları və vəzifəli şəxslərin etik davranış qaydalarının təkmilləşdirilməsi | - sahələr üzrə etik davranış qaydalarının qəbul edilməsi<br>- etik davranış qaydalarının pozulmasına görə məsuliyyətin müəyyən edilməsi<br>- etik davranış məsələləri üzrə tədris və treninqlərin təşkil edilməsi<br>- dövlət qulluqçularının qeyri-etik davranışı barədə şikayətetmə imkanlarının genişləndirilməsi<br>- etik davranış qaydaları barədə ictimaiyyətin məlumatlandırılması | Mərkəzi və yerli icra hakimiyyəti orqanları<br>tövsiyə edilir: Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, bələdiyyələr | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Yanvar 2008-ci ildən başlayaraq mütəmadi | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 20. | Dövlət qulluğuna qəbulun təkmilləşdirilməsi və şəffaflığın artırılması | - dövlət qulluğunun bütün sahələrində dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi<br>- bu sahədə zəruri nəzarət mexanizmlərinin yaradılması<br>- dövlət qulluğuna qəbulun şərtləri haqqında məlumatların ictimaiyyətə çatdırılması | Nazirlər Kabineti, Azərbaycan Respublikasının *Dövlət İmtahan Mərkəzi*, aidiyyəti dövlət orqanları | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2007-2009 Mütəmadi | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| 21 | Dövlət qulluqçularının maddi təminatının gücləndirilməsi | - dövlət qulluqçularının dövlət məvaciblərinin mərhələlərlə artırılması, onların sosial təminatının gücləndirilməsi<br>- dövlət məvaciblərinin artırılmasının həvəsləndirmə sisteminə əsasən qurulması | Nazirlər Kabineti, Prezidentin İcra Aparatı | | 2008-2011 | Dövlət büdcəsi |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - dövlət qulluğunun nüfuzunun artırılması<br>- dövlət qulluğuna ixtisaslı kadrların cəlb edilməsi | | | | |
| 22. | Dövlət qulluqçularının peşəkar-lığının artırılması | - dövlət qulluqçularının ixtisasartırma üzrə ehtiyaclarının müəyyən edilməsi və onların treninqlərə cəlb edilməsi<br>- dövlət orqanlarının nəzdində olan tədris müəssisələrinin və mərkəzlərinin fəaliyyətinin təkmilləşdirilməsi<br>- beynəlxalq təcrübənin öyrənilməsi<br>- dövlət orqanlarının əməkdaşları üçün birgə kursların təşkil edilməsi<br>- korrupsiyaya qarşı mübarizə məsələləri ilə əlaqədar tədris proqramlarının və treninqlərin təşkil edilməsi (etik davranış məsələləri, maraqlar toqquşması, məlumat azadlığı və s.) | Prezidentin İcra Aparatı, mərkəzi və yerli icra hakimiyyəti orqanları | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Mütəmadi | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| 23. | Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi sisteminin | - qiymətləndirmə qaydalarının qəbulu və sisteminin tətbiqi<br>- dövlət qulluqçusunun vəzifədə irəliləməsində qiymətləndirmənin nəticələrinin nəzərə alınması | Azərbaycan Respublikasının *Dövlət İmtahan Mərkəzi*, mərkəzi və yerli icra hakimiyyəti orqanları [3] | | 2008-ci ildən başlayaraq | |
| 24. | Dövlət qulluğunda rotasiya sisteminin tətbiq edilməsi | - rotasiya sisteminin tətbiq ediləcəyi sahələrin müəyyən edilməsi və rotasiya prinsipinin tətbiq edilməsi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları, digər aidiyyəti dövlət orqanları | | Mütəmadi | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|

## III. Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlar, hüquq mühafizə orqanları və məhkəmələrin fəaliyyəti sahəsində

### 1. KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ İXTİSASLAŞMIŞ QURUMLARIN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 25. | Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsi | - Komissiyanın Katibliyinin işçilərinin və işçi qruplarının üzvlərinin professional təlimlərə cəlb edilməsi<br>- vətəndaş cəmiyyəti institutlarının, özəl sektor, kütləvi informasiya vasitələri və elm nümayəndələrinin cəlb edilməsi<br>- beynəlxalq tərəfdaşlarla əlaqələrinin gücləndirilməsi və beynəlxalq təşəbbüslərdə iştirak edilməsi<br>- korrupsiya sahəsində sorğuların və monitorinqlərin aparılması, nəticələrin təhlil edilməsi və müvafiq tədbirlərin görülməsi<br>- Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması<br>- Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması | Komissiyaya qarşı mübarizə üzrə Komissiya | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar, KİV | Mütəmadi<br>2007-2008<br>2007-2008 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| 26. | Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin fəaliyyətinin təkmilləşdirilməsi | - İdarənin işçi heyətlə tam komplektləşdirilməsi<br>- İdarə əməkdaşlarının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış təlimlərə cəlb edilməsi<br>- İdarənin yeni bina ilə təmin edilməsi və maddi-texniki təminatının gücləndirilməsi | Baş Prokurorluq-tövsiyə edilir Nazirlər Kabineti | | 2007-2008<br>2007-2008 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| **2. HÜQUQ MÜHAFİZƏ ORQANLARININ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 27. | Korrupsiya hüquqpozmalarına qarşı mübarizədə cinayət təqibini həyata keçirən orqanlar arasında əməkdaşlığın təkmilləşdirilməsi | - orqanlar arasında qarşılıqlı əməkdaşlığın səmərəli təşkili üçün tədbirlər görülməsi<br>- orqanlar arasında yeni texnologiya vasitələrinin tətbiqi ilə səmərəli məlumat və təcrübə mübadiləsinin təmin edilməsi<br>- korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasının yaradılması | Baş Prokurorluq-tövsiyə edilir, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Vergilər Nazirliyi | | 2007-2008<br><br>Mütəmadi<br><br>2008 | |
| 28. | Hüquq mühafizə orqanları əməkdaşlarının korrupsiyaya qarşı mübarizədə peşəkarlılığının artırılması | - korrupsiya cinayətlərinin aşkar edilməsi, istintaqı və ittihamı üzrə müvafiq əməkdaşların ixtisaslaşması<br>- korrupsiya cinayətləri üzrə cinayət təqibinin ixtisaslaşmış əməkdaşlar tərəfindən həyata keçirilməsi<br>- korrupsiya cinayətləri üzrə cinayət təqibi məsələləri və bu sahədə yeni qəbul edilmiş qanunvericilik üzrə tədris və treninqlərin təşkil edilməsi<br>- qabaqcıl təcrübəni bölüşmək üçün hüquq mühafizə orqanlarının tədris müəssisələrinin (mərkəzlərinin) nümayəndələrindən təşkil edilmiş işçi qrupun yaradılması, korrupsiya cinayətlərinin istintaqı üzrə birgə treninq üçün proqramların tərtib edilməsi<br>- korrupsiya cinayətləri üzrə cinayət təqibi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi | Baş Prokurorluq-tövsiyə edilir, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Vergilər Nazirliyi | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Yanvar 2008-ci ildən başlayaraq mütəmadi | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 29. | Korrupsiya cinayətlərinin aşkar edilməsi məqsədilə əməliyyat-axtarış tədbirlərinin gücləndirilməsi | - korrupsiya cinayətlərinin aşkar edilməsində əməliyyat-axtarış tədbirlərinin daha geniş tətbiq edilməsi<br>- əməliyyat-axtarış fəaliyyətinin subyektləri arasında əməkdaşlığın gücləndirilməsi və birgə treninqlərin keçirilməsi | Baş Prokurorluq-tövsiyə edilir, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Vergilər Nazirliyi | | Mütəmadi | Dövlət büdcəsi |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - korrupsiyaya qarşı mübarizədə əməliyyat<br>- axtarış tədbirlərinin səmərəliliyinin artırılmasına dair təkliflərin hazırlanması | | | | |
| 30. | Korrupsiya hüquqpozmalarının törədilməsində iştirak etmiş şəxslərin səlahiyyətli orqanlara istintaq üçün faydalı olan informasiya verməsini və onlarla əməkdaşlıq etməsini stimullaşdırmaq üçün tədbirlər görülməsi | - cinayət təqibi orqanı ilə əməkdaşlıq barədə saziş praktikasının tətbiqi məsələlərinin öyrənilməsi<br>- korrupsiyaya qarşı mübarizədə şahidlərin və cinayət təqibini həyata keçirən orqanlarla əməkdaşlıq edən şəxslərin müdafiəsi işinin təkmilləşdirilməsi | Baş Prokurorluq-tövsiyə edilir: Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi | Beynəlxalq tərəfdaşlar | 2008-2009 | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| **3. HAKİMLƏRİN VƏ MƏHKƏMƏLƏRİN FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 31. | Məhkəmə qərarlarının dərc edilməsi işinin təkmilləşdirilməsi | - məhkəmə qərarlarının internet səhifələrində yerləşdirilməsi və məlumatların mütəmadi olaraq yeniləşdirilməsi | tövsiyə edilir: Ali Məhkəmə, apellyasiya məhkəmələri | Beynəlxalq tərəfdaşlar | Mütəmadi | |
| 32. | Məhkəmə və hakimlərin fəaliyyətini, o cümlədən hakimlərin intizam məsuliyyətinə cəlb olunmasını tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi | - hakimlərin intizam məsuliyyətinə cəlb edilməsinin əsaslarına yenidən baxılması<br>- beynəlxalq təcrübənin öyrənilməsi<br>-müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması | Məhkəmə Hüquq Şurası - tövsiyə edilir | Beynəlxalq tərəfdaşlar | 2008 | |
| 33. | Məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsi üçün tədbirlərin həyata keçirilməsi | - məhkəmə qərarlarının icrasına həmin qərarları çıxarmış hakimlərin nəzarətinin artırılması<br>- mövcud çatışmazlıqların aradan qaldırılması<br>- qərarların icrası zamanı nöqsanlara yol vermiş əməkdaşların cəzalandırılması<br>- məhkəmə qərarlarının icrası ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklər layihəsinin hazırlanması | Ədliyyə Nazirliyi, məhkəmələr-tövsiyə edilir | Beynəlxalq tərəfdaşlar | Mütəmadi<br>2008 | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 34 | Vəkillik fəaliyyətinin təkmilləşdirilməsi | - Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması<br>- dövlət hesabına ödənilən hüquqi yardıma görə vəkillərə verilən məbləğin artırılması<br>- vəkillərin etik davranış qaydalarının qəbul edilməsi | Nazirlər Kabineti<br><br>Vəkillər Kollegiyası – tövsiyə edilir | Beynəlxalq tərəfdaşlar | 2008-2011<br><br>2008 2007 | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |

## IV. İqtisadi və sosial sahədə

| **1. SAHİBKARLIĞIN İNKİŞAFI VƏ ÖZƏLLƏŞDİRMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** |
|---|

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 35. | Sahibkarlığın inkişafı ilə bağlı tədbirlər | - sahibkarların investisiya fəaliyyətinin müdafiəsi sisteminin inkişafı və gücləndirilməsi<br>- sahibkarların kreditlərdən istifadə imkanlarının genişləndirilməsi<br>- dövlət orqanlarının sahibkarlıq subyektlərinin fəaliyyətinə qeyri-qanuni müdaxiləsinin qarşısının alınması<br>- sahibkarların dövlət orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və onların həlli üçün tədbirlərin görülməsi<br>- iqtisadi sahədə beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan Respublikası ilə bağlı tərtib edilən hesabatların öyrənilməsi və təhlili, bununla əlaqədar təkliflərin hazırlanması | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, aidiyyəti dövlət orqanları[4] | Beynəlxalq tərəfdaşlar | Mütəmadi | |
| 36. | Özəlləşdirmə prosedurlarının təkmilləşdirilməsi | - özəlləşdirmə prosesində bütün şəxslərin bərabərhüquqlu iştirakının təmin edilməsi<br>- dövlət auksionlarının keçirilməsi üçün prosedurların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması<br>- özəlləşdirmə prosesində maraqlar toqquşmasının qarşısının alınması üçün tədbirlər görülməsi | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi | Beynəlxalq tərəfdaşlar | Mütəmadi | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 37. | Özəlləşdirmədə şəffaflığın artırılması üçün tədbirlərin görülməsi | - özəlləşdirmə barədə məlumat təminatının təkmilləşdirilməsi<br>- özəlləşdirmə prosesinin təşkilinə cəlb ediləcək müstəqil məsləhətçilərin (ekspertlərin) seçilməsində şəffaflığın artırılması | Əmlak Məsələləri Dövlət Komitəsi | Beynəlxalq tərəfdaşlar | Mütəmadi | |
| **2. MALİYYƏ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 38. | Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması | - maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsinə və maliyyə nəzarəti mexanizminin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması<br>- büdcə xərclərinin bütün sahələr üzrə əsaslandırılmış normativlərinin müəyyən edilməsi<br>- büdcə sistemini tənzimləyən qanunvericiliyin və büdcə təsnifatının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması<br>- yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflərin hazırlanması | Nazirlər Kabineti, Maliyyə Nazirliyi, tövsiyə edilir: Hesablama Palatası, Auditorlar Palatası | | 2008-2009 | |
| **3. DÖVLƏT SATINALMALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 39. | Dövlət satınalmalarında ədalətli rəqabətin və bərabərhüquqlu iştirakın təmin edilməsi | - dövlət satınalma müqavilələri üzrə ödənişlərə maliyyə orqanlarının nəzarətinin artırılması<br>- dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə və satınalma müqavilələrinin icrasında qanun pozuntularına yol vermiş hüquqi və fiziki şəxslərin gələcəkdə dövlət satınalmalarında iştirakını məhdudlaşdıran mexanizmin yaradılması | Satınalmalar üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi | Beynəlxalq tərəfdaşlar | 2007-2009 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | | - dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarını qorumaq məqsədilə şikayətlərə təxirəsalınmadan baxılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi<br>- dövlət satınalmalarında aşkar edilən korrupsiya halları barədə hüquq mühafizə orqanlarının məlumatlandırılması – dövlət satınalmalarının vəziyyətinin və dövlət satınalmaları sisteminin səmərəliliyinin dəyərləndirilməsi, mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | | | | |
| 40. | Dövlət satınalmalarında şəffaf-lığın artırılması | - dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iddiaçıların geniş cəlb olunmasını və müsabiqələrin nəticələri haqqında-məlumatların dərc olunması üçün internet imkanlarından istifadə edilməsi<br>- elektron dövlət satınalmaların təşkili üçün tədbirlərin həyata keçirilməsi | Satınalmalar üzrə Dövlət Agentliyi | Beynəlxalq tərəfdaşlar | 2007-2009 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| 41. | Dövlət satınalmalarında peşə-karlılığın artırılması | - dövlət satınalmaları haqqında məlumat kitabçalarının hazırlanması<br>- elektron dövlət satınalmalarının təşkili və keçirilməsinə cəlb olunan mütəxəssislərin ixtisas səviyyəsini artırmaq məqsədilə təlim və treninqlərin təşkili<br>- tender prosedurlarının təşkili və keçirilməsində tender komissiyalarının məsuliyyətinin artırılması | *İqtisadiyyat Nazirliyi*, mərkəzi və yerli icra hakimiyyəti orqanları[5] | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Mütəmadi | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| **4. DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİNİN APARILMASI SAHƏSİNDƏ** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 42. | Daşınmaz əmlakın dövlət reyestrinin aparılması sahəsində şəffaflığın artırılması | - daşınmaz əmlaka dair hüquqların qeydiyyatı, daşınmaz əmlakın texniki pasportunun alınması, dövlət reyestrindən çıxarış, məhdudlaşdırmaya dair dövlət reyestrindən arayış alınması üçün qaydaların və müddətlərin sadələşdirilməsinə dair təkliflərin hazırlanması, bu prosesdə süni manеələrin aradan qaldırılması<br>- daşınmaz əmlakın dövlət reyestrindən məlumatların və sənədlərin internet şəbəkəsi vasitəsilə əldə olunmasının təmin edilməsi | Nazirlər Kabineti, Əmlak Məsələləri Dövlət Komitəsi | Beynəlxalq tərəfdaşlar | 2008 | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| **5. KORRUPSİYA HÜQUQPOZMALARINDAN ƏLDƏ EDİLMİŞ GƏLİRLƏRİN LEQALLAŞDIRILMASININ QARŞISININ ALINMASI** | | | | | | |
| 43. | Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının qarşısının alınması və institusional mexanizmin möhkəmləndirilməsi | - cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı mübarizə aparan orqanların əməkdaşlıq və məlumat mübadiləsinin təmin edilməsi<br>- maliyyə əməliyyatlarının qeydiyyatı və uçotu mexanizmlərinin təkmilləşdirilməsi<br>- mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalarda nağdsız ödəmələrin həcminin artırılması üçün tədbirlərin həyata keçirilməsi | Nazirlər Kabineti, aidiyyəti dövlət orqanları | Beynəlxalq tərəfdaşlar | Mütəmadi | |
| 44. | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması üzrə beynəlxalq standartların tətbiq edilməsi | - dövlət orqanlarında aidiyyəti işçilərin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına qarşı tədbirlər üzrə təlimatlandırılması<br>- maliyyə institutlarının və aidiyyəti dövlət orqanlarının beynəlxalq standartlar barədə məlumatlandırılması və treninqlərə cəlb edilməsi<br>- Maliyyə Tədbirləri üzrə İşçi Qrupun (FATF) tövsiyələrinin tətbiqi üçün tədbirlərin görülməsi | Nazirlər Kabineti, aidiyyəti dövlət orqanları, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti[6] | Beynəlxalq tərəfdaşlar | 2008-2009 | Dövlət büdcəsi və qanunvericiliklə qadağan edilməyən digər mənbələr |
| **6. AUDİT XİDMƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 45. | Beynəlxalq audit standartlarının tətbiqinin həyata keçirilməsi | - beynəlxalq standartlara uyğun olaraq daxili audit xidmətinin fəaliyyətini tənzimləyən metodiki göstərişlər və tövsiyəvi vəsaitlər hazırlanması<br>- auditorların fəaliyyətinə dair nəzarət sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması | Nazirlər Kabineti, aidiyyəti dövlət orqanları, Auditorlar Palatası-tövsiyə edilir | Beynəlxalq tərəfdaşlar | 2008-2009 | |
| 46. | Auditor xidmətinin keyfiyyətinin artırılması | - auditorların məsuliyyətinin artırılması üzrə normativ hüquqi aktların hazırlanması<br>- daxili audit xidmətinin fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi<br>- təsərrüfat subyektlərinin mühasibat uçotu və maliyyə hesabatlarında şəffaflığın təmin olunması | Nazirlər Kabineti, aidiyyəti dövlət orqanları, Auditorlar Palatası-tövsiyə edilir | Beynəlxalq tərəfdaşlar | 2008-2009 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| **7. LİSENZİYA VƏ İCAZƏ VERMƏ İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 47. | Lisenziyaların və icazələrin verilməsi sahəsində dövlət orqanlarının işinin təkmilləşdirilməsi və şəffaflığın artırılması | - lisenziyaların və icazələrin verilməsi şərtlərinin və müddətlərinin sadələşdirilməsinə dair təkliflərin hazırlanması<br>- razılıq funksiyalarının (qeydiyyata alınma, lisenziyaların, icazələrin, arayışların, şəhadətnamələrin və s. verilməsi) elektron sisteminə keçirilməsi üçün təkliflərin hazırlanması | Nazirlər Kabineti, aidiyyəti dövlət orqanları | Beynəlxalq tərəfdaşlar | 2008-2009 | |
| **8. VERGİ VƏ GÖMRÜK İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | | | | |
| 48. | Vergi nəzarəti və yoxlamalarının səmərəliliyinin artırılması | - vergi auditinin seçim prosesinin avtomatlaşdırılması<br>- vergi nəzarəti və nəticələrinin rəsmiləşdirilməsinin avtomatlaşdırılması sisteminin tətbiq edilməsi<br>- kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi üçün standart göstəricilər sisteminin və proqram təminatının işlənib hazırlanması<br>- vergi orqanlarının qərarlarından verilən şikayətlərə baxılması işinin təkmilləşdirilməsi<br>- vergi orqanlarının qərarlarının icrasına səmərəli nəzarətin təşkili<br>- qanunvericiliyə uyğun olaraq məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin auditdən yayınma hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi | Nazirlər Kabineti, Vergilər Nazirliyi | Beynəlxalq tərəfdaşlar | 2007-2009 | |
| 49. | Vergi ödəyicilərinin zəruri məlumatlarla təmin edilməsinin asanlaşdırılması | - vergi ödəyicilərinə internet vasitəsilə büdcə ilə hesablaşmalar barədə məlumatların əldə edilməsi imkanının yaradılması<br>- vergi ödəyicisinin kommersiya sirri hesab edilməyən məlumatlarının internet vasitəsilə əldə edilməsi imkanlarının yaradılması | Nazirlər Kabineti, Vergilər Nazirliyi | QTH-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2007-2009 | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | - vergi bəyannamələrinin internet vasitəsilə elektron formatda təqdim olunmasının tətbiq edilməsi<br>- vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlərin görülməsi | | | | |
| 50. | Gömrük tarif və rüsumlarının toplanması prosesinin təkmilləşdirilməsi | - gömrük məntəqələrində gömrük rüsum və tarifləri barədə məlumat xidmətlərinin yaradılması<br>- gömrük rüsum və tarifləri barədə məlumatların internet informasiya ehtiyatlarında yerləşdirilməsi<br>- gömrük ödənişlərində nağdsız ödəniş sisteminə keçilməsinin təmin edilməsi<br>- gömrük orqanlarının qərarlarından verilən şikayətlərə baxılması işinin təkmilləşdirilməsi<br>- gömrük orqanlarının qərarlarının icrasına səmərəli nəzarətin təşkili<br>- gömrük sərhədində mal dövriyyəsinin sürətləndirməsi və sahibkarlıq subyektlərinə əlverişli şəraitin yaradılması | Dövlət Gömrük Komitəsi | Beynəlxalq tərəfdaşlar | 2007-2009 | |
| | | **9. SƏHİYYƏ SAHƏSİNDƏ** | | | | |
| 51. | İcbari tibbi sığortanın mərhələlərlə həyata keçirilməsi | - icbari tibbi sığorta ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması<br>- icbari tibbi sığortasının həyata keçirilməsi üçün institusional mexanizmlərin müəyyən edilməsi<br>- icbari tibbi sığortanın tətbiq edilməsi | Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi | Beynəlxalq tərəfdaşlar | 2008-2010 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| 52. | Həkimlərin statusunun müəyyən edilməsi və maddi-texniki təminatı ilə bağlı tədbirlər | - həkim statusuna dair təkliflərin hazırlanması<br>- həkimlərin işə qəbulunun şəffaflıq və müsabiqə əsasında həyata keçirilməsi<br>- həkimlərin etik davranış qaydalarının qəbul edilməsi<br>- həkimlərin maaşlarının artırılması və sosial təminatının gücləndirilməsi | Nazirlər Kabineti, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2008-2010<br>2008<br>2008<br>2008-2011 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |
| | | **10. TƏHSİL SAHƏSİNDƏ** | | | | |
| 53. | Təhsil müəssisələrində idarəetmə mexanizminin təkmilləşdirilməsi | - təhsil müəssisələrində imtahanların aparılması mexanizminin təkmilləşdirilməsi və şəffaflığın artırılması, ictimai nəzarətin gücləndirilməsi<br>- ali təhsil müəssisələrində şikayətlərə baxılmasının səmərəliliyinin artırılması | Təhsil Nazirliyi | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Mütəmadi<br>2008 | |
| 54. | Müəllimlərin statusunun müəyyən edilməsi və maddi-texniki təminatı ilə bağlı tədbirlər | - müəllim statusuna dair təkliflərin hazırlanması<br>- müəllimlərin işə qəbulunun şəffaflıq və müsabiqə əsasında həyata keçirilməsi<br>- müəllimlərin etik davranış qaydalarının qəbul edilməsi<br>- müəllimlərin maaşlarının və sosial təminatının gücləndirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2008-2010<br>2008<br>2008<br>2008-2011 | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |

## V. Maarifləndirmə və əməkdaşlıq sahəsində

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 55. | Korrupsiyaya qarşı mübarizəyə və Milli Strategiyanın icrasına yönəlmiş tədbirlər barədə məlumatların ictimaiyyətə çatdırılması | - dəyirmi masaların, konfrans və seminarların, ictimai dinləmələrin həyata keçirilməsi<br>- maarifləndirici nəşrlərin, filmlərin, rəsmlərin və digər vəsaitlərin hazırlanması | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Təhsil Nazirliyi, mərkəzi və | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar, KİV | Mütəmadi | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - vəzifəli şəxslərlə kütləvi informasiya vasitələrində mütəmadi müsahibələr və söhbətlərin keçirilməsi<br>- ali və orta ixtisas məktəbləri, ixtisasartırma və tədris mərkəzlərinin proqramlarına korrupsiya ilə mübarizə haqqında tədris kurslarının daxil edilməsi | yerli icra hakimiyyəti orqanları, Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti, tövsiyə edilir: Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, İnsan hüquq-ları üzrə Müvəkkil (Ombudsman) | | | |
| 56. | Milli Strategiyanın icrasında vətəndaş cəmiyyəti institutlarının rolunun artırılması | - Milli Strategiyanın həyata keçirilməsinə qeyri-hökumət təşkilatları, özəl sektorun nümayəndələri və digər tərəfdaşların cəlb edilməsi<br>- korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan jurnalistlərin peşəkarlılığının, etik davranışının və məsuliyyətinin artırılması məqsədilə təlim və treninqlər keçirilməsi<br>- vətəndaş cəmiyyəti institutlarının Milli Strategiyanın icrası ilə əlaqədar təşəbbüslərinin dəstəklənməsi | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, mərkəzi və yerli icra hakimiyyəti orqanları, digər aidiyyəti dövlət orqanları, tövsiyə edilir: Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar, KİV, Mətbuat Şurası | Mütəmadi | Dövlət büdcəsi və qanunverici-liklə qadağan edilməyən digər mənbələr |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 57. | Korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın həyata keçirilməsi | - Milli Strategiyada göstərilən tədbirlərin icrası məqsədilə beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak edilməsi - korrupsiya ilə mübarizə sahəsində beynəlxalq təşkilatlar və xarici dövlətlərin müvafiq orqanları ilə əməkdaşlığın davam etdirilməsi<br>- Fəaliyyət planında nəzərdə tutulan müvafiq tədbirlərin dəstəklənməsi üçün beynəlxalq tərəfdaşların konsultativ, metodiki, texniki və digər yardımlarından istifadə edilməsi | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, mərkəzi və yerli icra hakimiyyət orqanları, digər aidiyyəti dövlət orqanları tövsiyə edilir: | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | Mütəmadi | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində hazırlanmış korrupsiyaya qarşı mübarizə ilə bağlı tövsiyələrinin yerinə yetirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi<br>- "Transparency International" təşkilatı tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində tövsiyələrinin həyata keçirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Baş Prokurorluq, Məhkəmə Hüquq Şurası, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) | | | |

## VI. Milli strategiyanın icrası üzrə nəzarət sisteminin təşkili

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 58. | Milli Strategiyanın icrası ilə bağlı dövlət orqanları tərəfindən görülən tədbirlər | - mərkəzi icra hakimiyyəti orqanları tərəfindən Milli Strategiyanın icrası üzrə illik tədbirlər planının qəbul edilməsi və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi<br>- mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən Milli Strategiyanın icra vəziyyəti barədə məlumatların hər altı aydan bir Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya və Nazirlər Kabinetinə təqdim edilməsi<br>- Milli Strategiyanın icrasına məsul digər qurumlar tərəfindən Milli Strategiyanın icra vəziyyəti barədə məlumatların hər altı aydan bir Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | aidiyyəti dövlət orqanları | | Hər il dekabrın 20-dək<br><br>Hər il dekabrın 30-u və iyunun 30-dək<br><br>Hər il dekabrın 30-u və iyunun 30-dək | |
| 59. | Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Nazirlər Kabineti tərəfindən Milli Strategiyanın icrası ilə bağlı tədbirlər | - Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Nazirlər Kabineti tərəfindən Milli Strategiyanın icrası üzrə tədbirlərin yerinə yeritirilməsi vəziyyətinin dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması | Nazirlər Kabineti, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası | | Hər il yanvarın 30-u və iyulun 3O-dək | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|
| | | - Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən Milli Strategiyanın icra vəziyyətinin yoxlanılması məqsədilə monitorinqlərin keçirilməsi<br>- Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən Korrupsiya ilə mübarizə üzrə illik milli hesabatın hazırlanması<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikası Milli Məclisi qarşısındakı illik hesabatlarında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verməsi | | QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar<br><br>QHT-lər, müstəqil ekspertlər, beynəlxalq tərəfdaşlar | 2008-2011<br><br>Hər il yanvarın 30-nadək<br><br>2008-2011 | |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 dekabr 2009-cu il tarixli **653** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **(“Azərbaycan” qəzeti 25 dekabr 2009-cu il, 287)**
2. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)**
3. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, 101)**
4. 20 may 2016-cı il tarixli **900** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 22 may 2016-cı il, 110 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 861)**
5. 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 18 may 2017-ci il, 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802)**

## SƏRƏNCAM EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 21 dekabr 2009-cu il tarixli **653** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı **(“Azərbaycan” qəzeti 25 dekabr 2009-cu il, 287)** ilə III bölmənin 1-ci bəndinin ikinci hissəsində “**çirkli pulların yuyulmasının**” sözləri “**cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının** ” sözləri ilə əvəz edilmişdir.

[2] 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)** ilə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı (2007 — 2011-ci illər)"nın 36-cı, 37-ci bəndlərinin "İcrasına məsul orqan" sütununda "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi** " sözləri "**Əmlak Məsələləri**

**Dövlət Komitəsi**" sözləri ilə 42-ci bəndinin "İcrasına məsul orqan" sütununda "**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti**" sözləri "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

[3] 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802**) ilə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (2007-2011-ci illər)"nın 20-ci və 23-cü bəndlərinin "İcrasına məsul orqan" sütununda "**Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya**" sözləri "**Dövlət İmtahan Mərkəzi**" sözləri ilə əvəz edilmişdir.

[4] 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101**) ilə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (2007-2011-ci illər)"nın IV hissəsinin 35-ci bəndində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

20 may 2016-cı il tarixli **900** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 may 2016-cı il, 110 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 861**) ilə 35-ci bənddən "**və Sənaye**" sözləri çıxarılmışdır.

[5] 20 may 2016-cı il tarixli **900** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 22 may 2016-cı il, 110 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 5, maddə 861**) ilə 41-ci bənddə "**Satınalmalar üzrə Dövlət Agentliyi**" sözləri "**İqtisadiyyat Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

[6] 21 dekabr 2009-cu il tarixli **653** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, 287**) ilə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (2007-2011-ci illər)"nın 43-cü və 44-cü bəndlərinin "Tədbirin adı" sütununda "**Qeyri-qanuni fəaliyyətdən**" sözləri "**Cinayət yolu ilə**" sözləri ilə, "**Terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulmasının**" sözləri "**Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin**" sözləri ilə əvəz edilmişdir, "Görüləcək işlər və gözlənilən nəticələr" sütununda "**çirkli pulların yuyulmasına**" sözləri "**cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına**" sözləri ilə əvəz edilmişdir və "İcrasına məsul orqan" sütununa "**Nazirlər Kabineti**" sözlərindən sonra "**, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti**" sözləri əlavə edilmişdir.